Novruzəli Davud oğlu Aslanov (Novruz Aslan) 1963-cü il mart ayının 22-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.

«Varlı olmaq istəyirsənsə», «Xeyir və Şər», «Mənim düşüncələrim» (Qızıl Xaç və Qızıl Aypara hərəkatı haqqında), «Qızıl Aypara dünən, bugün, sabah», «Bir daha insan haqqında», «Əbədi həyat və möcüzəli varlıq», Mərhəmətin ünvanı , «Azərbaycan Qızıl Aypara Cəmiyyəti-zamanın axarında», «İnsan və onun möcüzəli dünyası», «Humanitar diplomatiya» kimi ədəbi və elmi-kütləvi kitabların müəllifidir. Bunlarla bərabər o, bir çox sevilən mahnıların müəllifi, «Humay İlahəsi» mükafatının və «Qrand» musiqili milli-ictimai mükafatın laureatıdır.

Novruz Aslanov Yusif Məmmədəliyev adına medala layiq görülmüş və Respublikanın sosial-ictimai həyatındakı xidmətlərinə görə 2005-ci il fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla «Tərəqqi» medalı, 4 mart 2010-cu il tarixdə 3-cü dərəcəli «Vətənə Xidmətə görə» ordeni ilə təltif olunmuşdur.

Beynəlxalq Eko-Energetika Akademiyasının fəlsəfə doktorudur.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidentidir.

2005-ci ildə Üçüncü Çağırış Milli Məclisin deputatı olub.

2010-cu ildən Dördüncü Çağırış Milli Məclisin deputatı olub.

2015-ci ildən Beşinci çağırış Milli Məclisin deputatı olub.

2007-ci ildə «Parlament Jurnalistləri» İctimai Birliyi tərəfindən təsis olunmuş «Seçici hüquqlarını müdafiə edən ən fəal millət vəkili» adına layiq görülüb.

Amerika Bioqrafiya İnstitutu tərəfindən tibb sahəsində göstərdiyi xidmətlərə görə 2008-ci ilin adamı elan olunub, 2010-cu ildə nümunəvi nailiyyətlər əldə etdiyinə görə «İlin Adamı» medalı ilə təltif olunub.

2009-cu ildə Milli Məclisdə göstərdiyi fəaliyyətə görə «Qızıl Buta», 2010-cu ildə Azərbaycanın həqiqətlərinin beynəlxalq miqyasda tanıdılmasındakı xidmətlərinə görə «Qız Qalası» Milli Mükafatına layiq görülüb.

2011-ci ildə uğurlu deputatlıq fəaliyyətinə görə «Xəzər» milli mükafatı ilə təltif edilib.

4 mart 2015-ci il tarixdə 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif olunub.

Ailəlidir, 4 övladı var.